Quluzadə J.V.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2024.74.99-104
UOT: 343.9

## Təqsirin mürəkkəb formasında ehtiyatsızlıq

**Xülasə:** Məqalədə cinayət qanunvericiliyində uzun müddətdir öz əksini tapan ikiqat təqsir problemi hüquqi baxımdan araşdırılmış, təqsirin mürəkkəb formasının düzgün müəyyən edilməsinin nəzəri və praktiki baxımdan əhəmiyyəti vurğulanmışdır. Bundan başqa, təqsirin qarışıq formasında törədilən konkret cinayətlərin hüquqi təhlili aparılmaqla, qeyd edilən institutun kvalifikasiya olunmuş cinayətlərdəki rolu ön plana çəkilmişdir.

**Açar sözlər:** cinayət; ehtiyatsızlıq; ikiqat təqsir; ictimai təhlükəli əməl; ictimai təhlükəli nəticə.

Cinayət hüquq ədəbiyyatlarında uzun müddətdir mövcud olan təqsirin mürəkkəb forması institutu mühüm hüquqi problemlərdən biri olmaqla həm cinayətlərin kateqoriyasının düzgün müəyyən edilməsi, həm də cəzanın fərdiləşdirilməsi üçün əhəmiyyətli rola malikdir. Bəzən qanunverici qəsdən törədilmiş cinayətlərə görə, həmin cinayət əməli ehtiyatsızlıqdan ölümə və ya digər ağır nəticələrə səbəb olduqda məsuliyyəti artırır. Belə hallarda eyni bir cinayət əməlində iki təqsir forması paralel olaraq mövcud olur. Hüquq ədəbiyyatlarında təqsirin qarışıq forması anlayışı ilə yanaşı, onunla eyni anlam kəsb edən “təqsirin ikiqat forması”, “təqsirin mürəkkəb forması” kimi ifadələrə də yer verilir [3, s. 286]. Bu anlayışın sovet cinayət hüququnda inkişaf etdirilməməsinə baxmayaraq, elmə ilk dəfə XIX əsrin əvvəllərində alman kriminalisti Feyerbax tərəfindən gətirilmişdir. Təqsirin ikiqat formasının mövcud olub-olmaması ilə bağlı uzun illər ərzində geniş müzakirələr aparılmışdır. Əksər cinayət hüquq nəzəriyyəçiləri təqsirkarlığın ikili formasının mövcudluğunu etiraf edirdilər.

Qeyd etmək zəruridir ki, tədqiqatlarda “iki təqsir forması ilə törədilmiş cinayətlər”, “təqsirin mürəkkəb forması”, “təqsirin ikili forması”, “təqsirkarlığın qarışıq forması” anlayışları çox vaxt G.V.Nazarenko tərəfindən müəyyən edilmiş və sinonim kimi qəbul edilmişdir [9, s. 41].

Təqsirkarlığın qarışıq formasının mahiyyəti bundan ibarətdir ki, qəsdən cinayət törətmiş şəxsin əməli öz niyyətiylə əhatə olunmayan ağır nəticələrə səbəb olur və bu əməlin nəticəsində qanunla daha ağır cəzaya görə cinayət məsuliyyəti yaranır. Təqsirin qarışıq formasını ehtiyatsızlıqla eyniləşdirmək olmaz, çünki şəxs ictimai təhlükəli nəticənin baş vermə ehtimalını qabaqcadan görə bildiyi, lakin kifayət qədər əsas olmadan onun qarşısını alacağını güman etdikdə və ya şəxs bu nəticələrin baş vermə ehtimalını qabaqcadan görə biləcəyi, yaxud görməli olduğu halda lazımi diqqət və ehtiyatlılıq göstərərək görmədikdə həmin əməl ehtiyatsızlıqdan törədilmiş cinayət kimi tövsif edilir [1].

Qeyd olunanlardan fərqli olaraq təqsirin ikili forması ümumilikdə qəsdən törədilmiş əməl kimi tanınır. Bununla yanaşı, təqsirin qarışıq formasını təqsirin üçüncü bir forması kimi qəbul

♦ **Quluzadə Jalə Vadət qızı** - Bakı Dövlət Universitetinin hüquq fakültəsinin “Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası” ixtisaslaşması üzrə magistrantı (Azərbaycan). E-mail: jale.quluzade01@gmail.com

etmək olmaz. Çünki burada qəsd və ehtiyatsızlıq paralel olaraq mövcud olur. Əməl qəsdən törədilir, ölüm və ya digər ağır nəticələrə psixi münasibət isə ehtiyatsızlıq formasında cərəyan edir.

Təqsirin ikiqat forması ağırlaşdırıcı halı olan tərkiblərdə öz əksini tapır [5, s. 224]. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Xüsusi hissəsinin ayrı-ayrı maddələrində bu cür tərkiblərə geniş rast gəlinir:144.3, 144-1.3, 144-2.3, 145.3, 146.3, 149.3.1, 149.3.2, 222.2, 222.3, 222-1.2, 222-1.3 və s.

İkiqat təqsir forması olan cinayətlərin məzmun və mahiyyətinin öyrənilməsi belə cinayətləri bir tərəfdən qəsdən törədilmiş cinayətlərdən, digər tərəfdən isə obyektiv baxımdan oxşar olan ehtiyatsızlıqdan törədilmiş cinayətlərdən fərqləndirmək üçün zəruridir. Belə ki, qəsdən sağlamlığa ağır zərər vurma nəticəsində zərərçəkmiş şəxsin ölümü baş verərsə, bu təqsirin mürəkkəb forması kimi səciyyələndirilir və qəsdən törədilmiş əməl kimi qiymətləndirilir. Belə olan halda əməl Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 126.3-cü maddəsi ilə tövsif edilir. Və əksinə, əgər ehtiyatsızlıqdan həyatdan məhrumetmə zamanı sağlamlığa ağır zərər vurmaq niyyəti müəyyən edilməmişdirsə, bu halda təqsirin qarışıq forması mövcud deyildir. Belə ki, əməl ehtiyatsızlıqdan ölümə səbəb olma kimi qiymətləndirilməli və CM-nin 124-cü maddəsi ilə tövsif edilməlidir.

Yuxarıda qeyd edildiyi kimi, cinayətlər qəsdən və ya ehtiyatsızlıqdan törədilə bilər. Bununla belə, bəzi cinayətlər var ki, onların tərkibi təqsirkarlığın ikiqat formasının yaradılmasını tələb edir, yəni şəxsin törətdiyi ictimai təhlükəli əmələ görə və konkret olaraq bu əməl nəticəsində baş vermiş ictimai təhlükəli nəticələrə görə təqsir. Eyni zamanda, təqsirin qarışıq formasında ictimai təhlükəli əmələ münasibətdə təqsir qəsd, baş vermiş ictimai təhlükəli nəticələrə münasibətdə isə ehtiyatsızlıq şəklində mövcud olur.

Göründüyü kimi təqsirin ikiqat forması onun iki müxtəlif formasının bir tərkibdə birləşməsidir, bunlardan biri insanın bilavasitə, ikincisi isə uzaq ictimai təhlükəli nəticəyə psixi münasibətini xarakterizə edir [6, s. 35].

Təqsirin mürəkkəb forması ilə törədilmiş ictimai təhlükəli əməl müvafiq maddənin ağırlaşdırıcı tərkib əlaməti kimi nəzərdə tutulduğundan daha ciddi məsuliyyəti müəyyən edir. Məsuliyyətin faktiki əsası kimi Cinayət Məcəlləsinin müvafiq maddəsində öz əksini tapan ictimai təhlükəli əməlin törədilməsi faktı, hüquqi əsası kimi isə cinayət tərkibinin bütün əlamətlərini ehtiva edən ictimai təhlükəli əməl çıxış edir. Amma nə törədilmiş əməlin tərkibində cinayət tərkibi olmadığı halda onun ictimai təhlükəliliyi, nə də ictimai təhlükəli olmayan əməldə cinayət tərkibinin bütün əlamətlərinin formal olması cinayət məsuliyyətinə əsas ola bilməz. Belə əsas yalnız cinayət-hüquqi mənada obyektiv şəkildə ictimai təhlükəni ifadə edən əməldə cinayətin bütün əlamətlərinin olmasıdır.

AR Cinayət Məcəlləsinin 141-ci maddəsinə (qanunsuz abort etmə) nəzər salsaq görərik ki, 141.1 və 141.2-də göstərilən "həkim tərəfindən tibb müəssisəsindən kənarda abort etmə", "xüsusi ali tibb təhsili olmayan şəxs tərəfindən abort etmə" olmaqla, ictimai təhlükəli hərəkətlərə psixi münasibət qəsd şəklində, həmin maddələr üzrə zərərçəkmiş şəxsin ölümü və ya sağlamlığa ağır zərər vurulması ilə əlaqədar ictimai təhlükəli nəticələrə psixi münasibət isə ehtiyatsızlıq şəklində cərəyan edir [2].

Təqsirin məzmunu insanın təkcə obyektə deyil, həm də konkret cinayətin obyektiv tərəfinə psixi münasibəti ilə müəyyən edildiyi üçün təqsirin qarışıq forması konkret cinayətin obyektiv əlamətlərinin kompleks xarakterini əks etdirməlidir. İkiqat təqsir forması olan iki qrup cinayəti ayırd etmək olar. Birincisi, hər hansı təhlükəsizlik qaydalarının pozulmasını təşkil edən, intizam və ya inzibatı xətalarının nəticələrindən təcrid olunmuş və yalnız həmin hərəkətlə səbəbli əlaqədə olan

ictimai təhlükəli nəticələrin baş verməsi ilə nəticələnən cinayətlərdir: əməyin mühafizəsi qanunvericiliyinin tələblərinin pozulması insanların ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda, nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti və nəqliyyat vasitələrinin istismar qaydalarının pozulması zərərçəkmiş şəxsin ölümünə və ya ağır bədən xəsarətinə səbəb olduqda və s. Bu cinayətlərdə qaydaların pozulması həm qəsdən, həm də ehtiyatsızlıqdan baş verə bilər, lakin nəticələrə münasibət yalnız ehtiyatsızlıqda ifadə olunur. İkinci qrup cinayətlərdə obyektiv tərəfin mürəkkəbliyi ondan ibarətdir ki, qanunla nəzərdə tutulmuş qəsdən törədilmiş əməl iki müxtəlif nəticəni gizlədir: bu halda hərəkətə və birinci (məcburi) nəticəyə münasibət qəsddə ifadə olunur, ikinci (uzaq) nəticəyə münasibət isə ehtiyatsızlıqda ifadə edilir. Belə cinayətlərə insanların ölümünə və ya digər ağır nəticələrə səbəb olan əmlakın qəsdən məhv edilməsi və ya zədələnməsi daxildir.

Qeyd edək ki, qanunverici tərəfindən tətbiq edilən ikili təqsir institutu təqsirkarın cəzasının müəyyən edilməsi məqsədilə törədilmiş əməldə cinayət tərkibinin olub-olmaması və bir cinayəti digərindən fərqləndirmək üçün əməlin kvalifikasiyası kimi fundamental məsələlərin həlli üçün çox vacibdir [10, s. 356].

Daha əvvəl də qeyd olunduğu kimi ikiqat təqsirlə törədilmiş cinayətlər, ümumilikdə qəsdən törədilmiş cinayətlər kimi tanınır. Bu, eyni zamanda residiv və xüsusilə təhlükəli residivlərin müəyyən edilməsi üçün əhəmiyyət kəsb edir.

N.G.İvanov qeyd edir: "ikiqat təqsirli əməl o zaman mümkündür ki, ehtiyatsızlıq nəticəsində faktiki olaraq baş vermiş nəticələr qanunun əhatə etdiyi nəticələrdən daha ciddi olsun. Bu zaman cinayət hüquq normasının quruluşu bu cür hərəkətləri vahid cinayətdə birləşdirir. Digər hallarda isə cinayət əməli məcmu qaydalarına uyğun olaraq tövsif edilməlidir." [7, s.201].

Təqsirin qarışıq forması əksər hallarda təhlükəsizlik qaydalarının pozulması ilə törədilən cinayət tərkiblərində təzahür edir. Belə ki, CM-nin 263-cü maddəsi yol hərəkəti və nəqliyyat vasitələrinin istismar qaydalarının pozulması ilə törədilən cinayətləri müəyyən edir. Əməl qəsd formasında törədilsə də, sağlamlığa az ağır zərər vurma ilə müşahidə edilən ictimai təhlükəli nəticəyə psixi münasibət ehtiyatsızlıq formasında baş verir. Bu halda daha yüngül sanksiya nəzərdə tutulmasına baxmayaraq, eyni əməllər üzrə 263.1-1 və 263.2-ci maddələr ağırlaşdırıcı tərkib əlamətlərini müəyyən edir. Birinci halda ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulması kimi ictimai təhlükəli nəticəyə səbəb olursa, ikinci halda ölümdən ibarət nəticə göstərilir.

Cəza təyin edilərkən ikiqat təqsir məsələsinin düzgün həlli vacibdir. Təqsir formasından asılı olaraq həm əməlin özünə münasibətdə, həm də ictimai təhlükəli nəticələrə münasibətdə məhkəmə təqsirkar şəxsə daha ağır və ya daha yüngül cəza təyin edə bilər. Burada cinayətin motiv və məqsədinin düzgün müəyyən edilməsi də xüsusi əhəmiyyət kəsb edir. Cinayətin motivi şəxsin konkret cinayəti törətməyə sövq edən şüurlu motivasiyası, hərəkətverici qüvvəsidir. Bu halda motiv müəyyən şəraitdən asılı olaraq formalaşır. Bəzi insanlarda ictimai təhlükəli əməllər törətmək əzmini doğuran motivlər müxtəlifdir. Bunlara şəxsi maraq, qisas, paxıllıq, xuliqanlıq və s. motivləri misal ola bilər. Motivlər istər qəsdən, istərsə də ehtiyatsızlıqdan törədilmiş istənilən cinayətə xasdır. Ona görə də əsassız cinayət yoxdur. Hər bir cinayət işinin istintaqı zamanı motiv müəyyən edilməlidir, çünki bu əlamət konkret cinayət tərkibinə daxil olub-olmamasından asılı olmayaraq həmişə sübut predmetinə daxil edilir. Təqsirin qəsd formasında motiv, bir qayda olaraq, əvvəlcədən konkret cinayətin törədilməsinə yönəldilir, təqsirin ehtiyatsızlıq formasında isə, motiv ağır nəticələrə səbəb olan ictimai təhlükəli davranış hesab edilməlidir.

Beləliklə, ikiqat təqsir forması olan cinayətlərdə aşağıdakı nəticələrə gəlmək olar:

1) ikiqat təqsir qəsd və ehtiyatsızlıq olmaqla təqsirin iki müxtəlif formasının birləşməsi ilə xarakterizə olunur;

2) təqsirin qarışıq forması ictimai təhlükəli əməlin müxtəlif hüquqi əhəmiyyətli əlamətlərinə münasibətdə müəyyən edilir;

3) ikiqat təqsir forması olan cinayətlərdə ehtiyatsızlıq ağır nəticələrlə bağlı olur;

4) təqsirin mürəkkəb forması yalnız kvalifikasiya olunmuş cinayətlərdə mövcud ola bilər;

5) qanunda göstərildiyi kimi, ümumilikdə ikiqat təqsir forması olan cinayətlər qəsdən törədilmiş cinayətlər hesab edilir ki, bu da cinayətin əsas elementində təqsirin qəsd forması ilə müəyyən edilir.

**Biblioqrafiya**

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. – Bakı: Hüquq yayın evi, 2023. -768 s.

2. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. F.Y. Səməndərovun ümumi red. ilə. – Bakı: Hüquq yayın evi, 2021, hissə 1. - 712 s.

3. Ağayev İ.B. Azərbaycan Respublikasının Cinayət hüququ. Xüsusi hissə. Dərslik. - Bakı: Nurlar, 2018. - 418 s.

4. Ağayev İ.B. Cinayət tərkibi. Dərs vəsaiti. - Bakı: Təhsil, 2005. - 496 s.

5. Səməndərov F.Y. Cinayət hüququ Ümumi hissə. Dərslik. - Bakı: Hüquq Yayın Evi, 2023. – 724 s.

6. Балашов С.К. К вопросу о видах и формах вины // Российский судья, 2007, 349 с.

7. Иванов Н.Г. Уголовное право России. Общая и Особенная части: учебник для вузов. - М.: Экзамен, 2003. -812 с.

8. Кудрявцев В.Н. Общая теория квалификации преступлений. 2-е изд., перераб. и доп. - М.: Юрист, 2002. - 390 с.

9. Назаренко Г.В. История вины и виновного вменения в уголовном праве // Российский следователь. – 2011. -№ 17. - С. 37-40.

10. Таганцев Н.С. Уложение о наказаниях уголовных и исправительных. - М.: Медиа, 2012. - 567 с.

**Guluzada J.V.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.74.99-104**
**UDC: 343.9**

## Manslaughter in the complex form of guilt

**Abstract:** In the article, the problem of double guilt, which has been reflected in the criminal legislation for a long time, was examined from a legal point of view, and the importance of the correct definition of the complex form of guilt was emphasized from a theoretical and practical point of view. In addition, by conducting a legal analysis of specific crimes committed in the mixed form of guilt, the role of the mentioned institution in qualified crimes was brought to the fore.

♦ **Guluzada Jala Vadat** - Master's student at the Faculty of Law of Baku State University, specializing in “Criminal Law, Criminal Procedure, Criminalistics and Forensic Expertise” (Azerbaijan). E-mail: jale.quluzade01@gmail.com

**Key words:** crime; manslaughter; double guilt; socially dangerous act; socially dangerous consequence.

**References**

1. Criminal Code of the Azerbaijan Republic. Baku: Hugug yayin evi Publ., 2023, 768 p. (in Azerbaijani).

2. Commentary to the Criminal Code of the Azerbaijan Republic. Under general ed. F.Yu. Samandarov. Baku: Hugug yayin evi Publ., 2021. Part 1. 712 p. (in Azerbaijani)

3. Agayev I.B. Criminal law of the Azerbaijan Republic. general part. Textbook. Baku: Nurlar Publ., 2018. 418 p. (in Azerbaijani).

4. Agayev I.B. Criminal composition. Textbook allowance. Baku: Tehsil Publ., 2005, 496 p. (in Azerbaijani).

5. Samandarov F.Yu. Criminal law. A common part. Textbook. Baku: Hugug yayin Evi, 2023, 724 p. (in Azerbaijani).

6. Balashov S.K. On the issue of types and forms of guilt // Russian Judge, 2007, 349 p. (in Russian).

7. Ivanov N.G. Criminal law of Russia. General and Special parts: textbook for universities. - M.: Ekzamen Publ., 2003, 812 p. (in Russian)

8. Kudryavtsev V.N. General theory of classification of crimes. 2nd ed., revised. and additional. Moscow, Yurist Publ., 2002, 390 p. (in Russian).

9. Nazarenko G.V. History of guilt and imputation in criminal law // Russian investigator, 2011. No. 17. P. 37- 40 (in Russian).

10. Tagantsev N.S. Code of Criminal and Correctional Punishments. Moscow, Media Publ., 2012, 567 p. (in Russian).

**Гулузаде Ж.В.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.74.99-104**
**УДК: 343.9**

## Небрежность в сложной форме вины

**Аннотация:** С юридической точки зрения рассмотрена проблема двойной формы вины, которая уже давно нашла отражение в уголовном законодательстве, подчеркнута важность правильного определения сложной формы вины с теоретической и практической точки зрения. Кроме того, путем проведения правового анализа конкретных преступлений, совершенных при смешанной форме вины, на первый план была выдвинута роль указанного института при квалификации преступлений.

**Ключевые слова:** преступление; неосторожность; двойная вина; общественно опасное деяние; общественно опасное последствие.

♦ **Гулузаде Жаля Вядат кызы** - магистрант юридического факультета Бакинского Государственного Университета по специальности «Уголовное право, уголовный процесс, криминология и судебная экспертиза» (Азербайджан). E-mail: jale.quluzade01@gmail.com

**Библиография**

1. Уголовный кодекс Азербайджанской Республики. – Баку: Хугуг яйын эви, 2023. – 768 с. (на азерб. яз.).

2. Комментарий к Уголовному кодексу Азербайджанской Республики. Под общ. ред. Ф.Ю. Самандарова. – Баку: Хугуг яйын эви, 2021. Ч. 1. – 712 с. (на азерб. яз.)

3. Агаев И.Б. Уголовное право Азербайджанской Республики. Общая часть. Учебник. – Баку: Нурлар, 2018. – 418 с. (на азерб. яз.).

4. Агаев И.Б. Уголовный состав. Учеб. пособ. – Баку: Техсил, 2005. – 496 с. (на азерб. яз.).

5. Самандаров Ф.Ю. Уголовное право. Общая часть. Учебник. – Баку: Хугуг яйын эви, 2023. – 724 с. (на азерб. яз.).

6. Балашов С.К. К вопросу о видах и формах вины // Российский судья, 2007, 349 с.

7. Иванов Н.Г. Уголовное право России. Общая и Особенная части: учебник для вузов. - М.: Экзамен, 2003. - 812 с.

8. Кудрявцев В.Н. Общая теория квалификации преступлений. 2-е изд., перераб. и доп. - М.: Юрист, 2002. - 390 с.

9. Назаренко Г.В. История вины и виновного вменения в уголовном праве // Российский следователь. - 2011. - № 17. - С. 37-40.

10. Таганцев Н.С. Уложение о наказаниях уголовных и исправительных. - М.: Медиа, 2012. - 567 с.